# Müstəqil auditorun hesabatı

## "Ataşgah Həyat" Sığorta ASC-nin

## rəhbərliyinə

Biz, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 2011-ci il 06 yanvar tarixli 047478 saylı lisenziyaya əsasən fəaliyyət göstərən "L. B. Audit Xidməti" MMC-nin direktoru - Auditor L.Q. Bayramova və 2011-ci il 19 dekabr tarixli SA/311 qeydiyyat №-li 072699 saylı lisenziyaya əsasən fəaliyyət göstərən Auditor M.A.Allahverdiyev "L.B. Audit Xidməti" MMC ilə "Ataşgah Həyat" Sığorta ASC arasında bağlanılmış 21.01.2013-cü il tarixli 50 saylı müqaviləyə və "L.B. Audit Xidməti" MMC-nin 25.02.2013-cü il tarixli 09 saylı sərəncamına əsasən, həmin cəmiyyətin 31.12.2012-ci il tarixə sığortaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mühasibat balansından ( Forma № 1 S) və bu tarixdə başa çatmış il üzrə sığotaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mənfəət və zərəri haqqında hesabatından ( Forma № 2 S), kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

### Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

### Auditorun məsuliyyəti

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında